# Azərbaycan dili üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.
Testin maksimal balı 70-dir.
Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

**Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturanın üzərində ox işarələri olan klavişlərindən istifadə edə bilərsiniz.**

***Sizə uğurlar arzulayırıq!***

# AZƏRBAYCAN DİLİ (35 BAL)

(2) **1.** **Şagird yazdı:** *Satıcı müşdərinin ona qəlb pul verdiyini anladı.*

Şagirdə bir hərfi səhv yazmaqla hansı sözün leksik mənasının dəyişdiyini, hansı sözün isə dəyişmədiyini izah edin.

(2) **2.** **Şagird yazdı:** *Bəzi bədii əsərlərdə şah İsmayıl Xətaidən də bəhs olunur.*

Şagirdə hansı səhvi buraxdığını göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **3.** **Şagird yazdı:** *Müzakirələrdə beş dənə adam çıxış etdi.*

Şagirdə hansı səhvi buraxdığını göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **4.** **Şagird yazdı:** *Həm Şuşa, həm də Laçın, həm də Ağdam işğaldan azad olundu*.

Şagirdə köməkçi nitq hissəsi ilə bağlı etdiyi səhvi göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **5.** **Şagird yazdı:** *Gülüşmək, vuruşmaq və büzüşmək feilləri bütün şəxslər üzrə dəyişə bilir.*

Şagirdin dediyi fikirlə bağlı etdiyi səhvi göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **6.** **Şagird yazdı:** *Səs-küydən hamı qaçdı açıq qapıya, xanım və qonaqlar isə çıxdılar eyvana.*

Şagird cümlədə hansı səhvə yol vermişdir?

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **7.** **Şagird yazdı:** *Həyatda uğur qazanmaq istəsə çətinlikləri dəf edə biləcək.*

Şagird tərəfindən buraxılan səhvi düzəldin.

Bənzər səhv etməmək üçün şagirdə nəyi bilmək lazım olduğunu izah edin.

(4) **8. Sizin məqsədiniz baş üzvlər arasında uzlaşma əlaqəsi və bununla bağlı ədəbi dil normasını şagirdlərə izah etməkdir.**

**I –** "Xəbərlə mübtəda arasında uzlaşma əlaqəsi pozulsa da, ədəbi dilin norması pozulmaz" hökmünün doğru olduğunu nümunə əsasında izah edin.

**II –** "Xəbərlə mübtəda arasında uzlaşma əlaqəsi pozulmadıqda da ədəbi dilin norması pozular" hökmünün doğru olduğunu nümunə əsasında izah edin.

(7) **9.** **“Ən böyük dövlət” adlı şifahi xalq ədəbiyyatı nümunəsini oxuyun:**

Keçmiş zamanlarda bir cavan oğlan həmişə öz kasıblığından şikayət edərdi.

– Ah nə yaxşı olardı ki, mənim də çoxlu var-dövlətim olaydı. Onda mən həmişə deyib-gülüb xoşbəxt yaşayardım! – deyə o, həmişə zarıldayardı.

Bir qoca onun evinin yanından keçəndə oğlanın sözlərini eşidib dedi:

– Sən nədən şikayətlənirsən? Sən ki böyük dövlət sahibisən.

– Mən dövlət sahibiyəm? – deyə oğlan təəccüb elədi. – Bəs hanı?

– Sənin gözlərin. Sən bir gözünün əvəzinə nə almaq istərdin? – deyə qoca ondan soruşdu.

– Sən nə danışırsan?! – deyə oğlan təşvişlə ona cavab verdi. – Mən gözümü heç bir xəzinəyə dəyişmərəm.

– Yaxşı, – deyə qoca sözünə davam etdi. – Onda gəl əllərini ver, kəsilsin. Əvəzinə sən çoxlu qızıl alarsan.

– Yox. Mən əllərimi qızıla satmaram, – deyə oğlan cavab verdi.

Qoca dedi:

– İndi görürsən ki, sən necə dövlətlisən?! Bəs nə üçün şikayətlənirsən? Mənə inan. İnsan üçün ən böyük dövlət qüvvət və sağlamlıqdır. Bunları heç bir pulla almaq olmaz.

Qoca bunu deyib öz yolu ilə çıxıb getdi.

**I –** Mətndə ifadə olunan əsas fikir nədir?

**II –** Mətndə təqdim olunan fikri dəstəkləmək və ya inkar etmək üçün arqument gətirin.

**III –** Mətnə əsaslanmaqla hansı arqumentin daha çox qəbul olunduğunu və səbəbini qeyd edin.

*Yerinə yetirdiyiniz tapşırıqda dil səhvi və ya stilistik qüsur buraxılmış olsa bir (1) balınız azalacaq.*

(10) **10.** Şagirdin yazı işini oxuyun və aşağıdakı göstərişləri yerinə yetirin:

**I –** Şagirdin yazı işinə I kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunə gətirin.

**II – Ş**agirdin yazı işinə II kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunə gətirin.

**III – 1. Ş**agirdin yazı işinə III kriteriyaya əsasən müvafiq bal yazın və mətndən müvafiq nümunələr gətirin.

**2.** Hər bir səhv növünü (orfoqrafik, morfoloji, punktual və ya sintaktik) müəyyən edin.

## Qiymətləndirmə sxemi

| *N* | *Meyarlar* | *Meyarların tərifi* | *Ballar* |
|---|---|---|---|
| **I** | Düşüncəni əsaslandırma (arqumentasiya və sitat) | a) Müzakirə aydındır, arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanır;<br>b) Müzakirə müəyyən qədər arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanmır və faktiki səhvlər buraxılıb;<br>c) Mətn qeyri-adekvatik anlaşılıb, müzakirə inandırıcı deyil, nümunələr qeyri-adekvatik olaraq istinad edilib. | 2<br>1<br>0 |
| **II** | Leksika və üslub | a) Fikir dəqiq və aydındır, yazı üslubu düzgündür;<br>b) Fikir düzgündür, ancaq söz bazası azdır və ya stilistik səhvlər var;<br>c) Əsas fikir aydındır, ancaq yazının üslubu düzgün deyil, qeyri-adekvatik sözlər var. | 2<br>1<br>0 |
| **III** | Orfoqrafiya, morfologiya, sintaksis və punktuasiya | a) Bu cür səhvlər üçdən çox deyil;<br>b) Bu cür səhvlər altıdan çox deyil;<br>c) Bu cür səhvlər altıdan çoxdur. | 2<br>1<br>0 |

**Şagird üçün təklif olunan tapşırıq:**

Bir insanın tək bir insana etdiyi təmənnasız yaxşılıqdan çoxları faydalana bilər.

*Arqumentli düşüncə ilə bu fikri inkar edin və ya onunla razılaşın.*

**Şagirdin yazısı:**

Öz ölkəsinə getmək üçün pula ehtiyacı olan bir nəfər imkansız adamın müraciətinə amerikalı dövlət adamı Franklin belə bir məktubla cavab verir:

“Əzizim!

15 sentyabr tarixli məktubunuzu aldım. Vəziyyətiniz üçün yazmış olduğunuz məktub məni olduqca kədərləndirdi. Bununla əlaqədar olaraq sizə on qızıl qiymətində bir çek göndərirəm. Bu, bir bəxşiş deyil borcdur. Elə düşünürəm ki, ölkənizə qayıtdığınız zaman bu borcunuzu ödəyə biləcək bir iş tapmaqda o qədər də çətinlik çəkməyəcəksiniz. Orada sizin düşdüyünüz çətinliyə oxşar bir vəziyyətdə olan hər hansı yoxsula rast gəlsəniz, mənə olan borcunuzu o adama ödəyin. Beləliklə, həm məni razı salmış olarsınız, həm o zavallıya köməklik göstərərsiniz, həm də borcunuzu ən samballı bir yolla ödəmiş olarsınız.

Lakin borc verdiyiniz adama xahiş edirəm söyləyəsiniz ki, vəziyyətini yaxşılaşdırandan sonra sizdən aldığı pulu ehtiyyacı olan başqa bir adama versin. Bax bu şəkildə bizim on qızılımız pis bir adamın əlinə düşənə qədər qoy bir-iki yoxsullara, kasıba ondan bir fayda olsun.

Bu yolla mən az pulla çox yaxşılıq etməyin sirrini tapdım. Arzu elədiyim qədər yaxşılığım toxunacaq pulum olmadığı üçün belə bir yol seçmək məcburiyyətində qaldım.

Vəziyyətinizin ən yaxın bir vaxtda yaxşılaşması üçün dua edir, sizə ehtiram göstərir, bununla da məktubu sona çatdırıram”.

# AZƏRBAYCAN ƏDƏBİYYATI (20 BAL)

(1) **11. C. Cabbarlının *“Oqtay Eloğlu”* əsərindəki Oqtay Eloğlu obrazını şagirdlərə təqdim edərkən obrazın davranış və əməlləri ilə bağlı hansı fikirlər doğru sayıla bilər?**

*Əsərin qəhrəmanı:*

1. xalqın mənafeyini öz şəxsi həyatından üstün tutur.
2. Azərbaycan teatrının bu günü üçün çalışmağı kifayət sayır.
3. qohumlarının ona haqsız münasibətindən sarsılır.
4. xalq üçün ailəsindən belə keçməyə hazırdır.
5. teatrdakı aktyorların bacarıqsızlığı onu bədbinliyə salır.
6. dostunun təklif etdiyi gəlirli mövqedən imtina edir.

A) 1, 4, 6.

B) 2, 3, 5.

C) 1, 3, 4.

D) 2, 5, 6.

(1) **12.** **Müəllim:** *“Mərdlik bədii ədəbiyyatda ən yüksək insani keyfiyyət kimi dəyərləndirilir”* fikrini şagirdlərə izah etmək üçün hansı əsərlərdən istifadə edə bilər?

1. İ. Hüseynov. “Zəhər”
2. Elçin. “Talvar”
3. İ. Şıxlı. “Namərd gülləsi”
4. Anar. “Keçən ilin son gecəsi”
5. Ə. Haqverdiyev. “Bomba”

A) 2, 4, 5.

B) 3, 4.

C) 1, 3.

D) 1, 2, 5.

(1) **13. Şagird soruşdu:** *“M. F. Axundzadənin “Müsyö Jordan və Dərviş Məstəli şah” əsərində Şahbazın Parisə getməkdə məqsədi nədir?”*

Müəllim şagirdin sualını hansı bəndlərlə cavablandıra bilər?

*Şahbazın məqsədi:*

1. kraldan bəxşiş almaqdır.
2. geri döndükdən sonra qulluq və hörmət sahibi olmaqdır.
3. azad yaşayan insanları görməkdir.
4. dil öyrənməkdir.
5. Şərəfnisə ilə toylarını ləngitməkdir.

A) 1, 3, 5.

B) 3, 4.

C) 2, 4.

D) 1, 2, 5.

(1) **14. M. P. Vaqifin *"Hayıf ki, yoxdur..."* qoşmasının tədrisi zamanı yaradılan təzadlı məqamları şagirdə göstərmək üçün hansı uyğunluqdan istifadə etmək lazımdır?**

*1. Təsvir olunan məkanın gözəl təbiəti*

*2. Zahiri gözəllik*

a. yaşayış məntəqələrinin görünüşü

b. təhsil səviyyəsinin aşağı olması

c. qadınların geyim-keçimi

d. təbiətə qarşı amansız münasibət

A) 1 – d; 2 – b.

B) 1 – a; 2 – c.

C) 1 – a; 2 – b.

D) 1 – c; 2 – a.

(1) **15. N. Gəncəvinin *“Sultan Səncər və qarı”* əsərinin tədrisi zamanı hansı fikirlərdən istifadə etmək mümkündür?**

1. Elmin, biliyin dəyəri xüsusi vurğulanır.
2. Dövlətin idarə edilməsi məsələlərinə münasibət bildirilir.
3. Cəsarətli qadın obrazı yaradılmışdır.
4. Zülmkar hökmdar obrazı yaradılmışdır.
5. Şair ideal hesab etdiyi hökmdar obrazı yaratmağı qarşıya məqsəd qoymuşdur.

A) 1, 4, 5.

B) 2, 3, 4.

C) 1, 2, 5.

D) 3, 4, 5.

(1) **16.** **Şagird soruşdu:** *“B. Vahabzadənin ”Şəhidlər” poemasında “On səkkizdə ölən köhnə şəhidlər Təzə şəhidləri bağrına basdı” misralarında şair nəyi nəzərdə tutur?”*

Müəllim şagirdin sualını hansı fikirlə cavablandıra bilər?

A) Müxtəlif dövrlərdə şəhid olan insanların eyni amal uğrunda mübarizə aparmasını.

B) İnsanların kütləvi şəkildə qətlə yetirilməsini.

C) 20 Yanvar şəhidlərinin 1918-ci ildə şəhid olan azərbaycanlıların torpağa tapşırıldığı məzarlıqda dəfn olunmasını.

D) Yanvarın 20-də şəhid olan insanların özlərindən əvvəlki şəhidləri unutmadıqlarını.

(1) **17. Şagird soruşdu:** *“Anarın “Keçən ilin son gecəsi” əsərində hansı keyfiyyətlər təbliğ olunur?”*

Müəllim şagirdin sualını cavablandırmaq üçün hansı fikirlərə əsaslanmalıdır?

1. Yaxşı təhsil almaq.

2. Süfrə başında birgə əyləşmək.

3. Ailə birliyi.

4. Mədəni davranış.

5. Dəyərlərin nəsildən nəslə ötürülməsi.

A) 4, 5.

B) 1, 2, 3.

C) 1, 2, 4.

D) 3, 5.

(1) **18. C. Məmmədquluzadənin *“Qurbanəli bəy”* hekayəsindəki Qurbanəli bəy obrazını təhlil edərkən şagirdə bu obrazla bağlı hansı fikirlərin çatdırılması doğrudur?**

1. Rus çinovniklərinə yaltaqlanmaq üçün əlindən gələni edir.

2. Davranışı və nitqi ilə özünü rüsvay edir.

3. Həm aşağı, həm də yuxarı təbəqənin nümayəndələrinə münasibətdə eyni mövqedə dayanır.

4. Bütün səyləri yüksək mövqeli ağaların təqdirini qazanmaq üçündür.

5. Aşpazının bişirdiyi plovu tərifləməyi milli dəyərlərə sədaqətinin göstəricisidir.

A) 1, 3.

B) 2, 3, 5.

C) 3, 4.

D) 1, 2, 4.

(1) **19.** ***“Heydərbabaya salam”*** **poemasının tədrisi zamanı əsərin məzmunu ilə bağlı hansı fikirlərdən istifadə etmək olar?**

1. Xalqımıza məxsus adət-ənənələrdən söhbət açılır.
2. Uşaqlıqdan tanıdığı hər kəsi  illər sonra yenidən görməsi şairin sevincinə səbəb olur.
3. Şair məhrumiyyətlər içində keçən uşaqlıq illərini kədərlə xatırlayır.
4. Özündən sonra yaxşı ad qoymaq məziyyət sayılır.
5. Xalqın maddi vəziyyəti ilə bağlı problemlərə də toxunulur.

A) 1, 4, 5.

B) 2, 3, 5.

C) 1, 3, 4.

D) 1, 2, 5.

(1) **20. Şagird soruşdu:** *“M. İbrahimovun “Gələcək gün” əsərində insan hüquqları pozulmuşdurmu?”*

Müəllim şagirdə cavab vermək üçün hansı faktlara əsaslanmalıdır?

1. Kəndlilər üçün səhiyyə xidmətinin olmaması.
2. Uşaqların valideynlərinə təsərrüfat işində yardım etmələri.
3. Çətin əziyyətlə qazanılmış gəlirin mənimsənilməsi.
4. Ərbabın hökmünə qarşı çıxanların sıxışdırılması.
5. Təhsilli adamın əkin-biçinlə məşğul olması.

A) 1, 2, 5.

B) 1, 3, 4.

C) 1, 2, 3.

D) 2, 4, 5.

(1) **21.** **S. Ə. Şirvaninin *“Qafqaz müsəlmanlarına xitab”* əsərinin tədrisində şagirdin diqqətini əsərdə qaldırılmış hansı problemlərə cəlb etmək olar?**

1. Millətin tərəqqi yolundan uzaq düşməsi.
2. Çarizmin müstəmləkəçilik siyasəti.
3. Yuxarı təbəqənin xalqı istismar etməsi.
4. Mülkədar ağalığının sərhəd tanımaması.
5. Cahillik və elmsizlik.

A) 2, 3, 5.

B) 1, 2, 3.

C) 1, 4.

D) 1, 5.

(1) **22. H. Cavidin *“Ana”* əsərindəki Qanpolad obrazını səciyyələndirərkən obrazla bağlı hansı məlumatlar verilə bilər?**

1. Qarşılıqlı məhəbbətlə sevir.
2. Etibarsız dostların xəyanətinə uğrayır.
3. Varlı təbəqənin nümayəndəsidir.
4. İntiqam almağın əleyhinədir.
5. İstəyinə çatmaq üçün hər yola əl atmağa hazırdır.

A) 1, 5.

B) 2, 3, 5.

C) 1, 4.

D) 1, 2, 3.

(1) **23.** ***"Koroğlu"*** **dastanının tədrisi zamanı əsərlə bağlı hansı fikirlərdən istifadə etmək doğru deyil?**

1. Koroğlunun başçılıq etdiyi xalq hərəkatı zülmkar paşalara, xanlara qarşı yönəlmişdir.
2. Bəzi xain insanlar xalq hərəkatına qarşı mübarizədə paşaların dayağıdır.
3. Aşağı təbəqədən olan bütün insanlar xalq hərəkatına rəğbət bəsləyirlər.
4. Əsir götürülən insanların hüquqları gözlənir.
5. Yüksək təbəqədən olan qadınlar rahat həyat axtarışında Çənlibelə üz tuturlar.
6. Koroğlunu özünə rəqib hesab edən adamlar arasında onun köməyinə yetişənlər də olur.

A) 1, 2, 6.

B) 3, 4, 5.

C) 1, 2, 5.

D) 3, 4, 6.

(1) **24. Şagird soruşdu:** *“Eyni ailənin üzvlərinin həyata baxışları bir-birindən kəskin şəkildə fərqlənə bilərmi?”*

Müəllim S. Vurğunun *“Vaqif”* əsərindəki hansı obrazlara istinad edərək şagirdin sualını müsbət cavablandıra bilər?

1. Vaqif və Vidadi obrazlarına.
2. Vaqif və Xuraman obrazlarına.
3. Əli bəy və Gülnar obrazlarına.
4. Gülnar və Xuraman obrazlarına.
5. İbrahim xan və Vaqif obrazlarına.

A) 1, 3.

B) 2, 4.

C) 3, 5.

D) 1, 2.

(1) **25.** **Şagird soruşdu:** *“N. Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsində iki düşmən ailənin başında dayanan Rüstəm bəyin Mələk xanımdan fərqlənən hansı cəhətləri var”?*

Müəllim sualı cavablandırmaq üçün hansı faktlardan istifadə edə bilər?

1. İntiqam hissi ilə alışıb-yanır.
2. Yeganə oğlunu qan intiqamına təhrik edir.
3. Qan davasında itirdiyi əzizinin acısı onu yandırıb-yaxır.
4. Nökərlərinə doğma övladı kimi dəyər verir.
5. İntiqam planlarının dəhşətli nəticəsini övladlarının ölümündən sonra dərk edir.

A) 1, 2, 3.

B) 3, 5.

C) 2, 4, 5.

D) 1, 4.

(1) **26. Ç. Aytmatovun *"Gün var əsrə bərabər"* romanının tədrisi zamanı Yedigey obrazını səciyyələndirərkən hansı fikirlərdən istifadə etmək mümkündür?**

1. Ana-Beyit qəbiristanlığını gözləyən aqibətlə barışmağa məcbur olur.
2. Milli kimliyini unutmuş insanlara acıyır.
3. Manqurt təbiətli insanlarla qarşılaşanda ruhdan düşür.
4. Milli adət-ənənələrə bağlıdır.
5. Yaxın dostu ilə eyni son məkanı paylaşmaq arzusundadır.

A) 2, 3, 5.

B) 2, 4, 5.

C) 3, 4, 5.

D) 1, 3, 4.

(1) **27. M. Ə. Sabirin *"Əkinçi"* şeirinin tədrisi zamanı şagirdə əsərin məzmunu ilə bağlı hansı doğru fikirləri söyləmək olar?**

1. Şeirdə əkinçi peşəsinin çətinlikləri də əksini tapmışdır.
2. Təbii fəlakətlərin qıtlığa səbəb olduğunu biləndə mülkədarın qəlbi bir az yumşalır.
3. Mülkədar obrazı zəhmətkeş insana biganə münasibətilə yadda qalır.
4. Əkinçinin şikayətlərinin mülkədarı daha da azğınlaşdırdığı meydana çıxır.
5. Mülkədarın daxili aləmi əkinçinin sözləri ilə hərtərəfli açılır.

A) 2, 4, 5.

B) 1, 3, 5.

C) 1, 2, 3.

D) 1, 3, 4.

(1) **28. Şagird soruşdu:** *"Mötərizə daxilində verilmiş sözlər hansı məqsədlə işlədilmişdir?"*

Müəllim sualı cavablandırmaq üçün hansı izahata əsaslana bilər?

A r i f

*(sinirli)*

Məhv olsa da həp bənliyim, uymam sana, dəf' ol!

İ b l i s

Durmam, gedərim...

*(qəhqəhə ilə çəkilir)*

1. Aktyor və rejissorlar üçün göstəriş.
2. Tamaşaçılar üçün izahat mənbəyi.
3. Xarakterin daxili aləminin açılması.
4. Səhnədəki vəziyyət.
5. Obazların düşüncələrini ifadə etmək.

A) 1, 4.

B) 2, 5.

C) 2, 4.

D) 1, 3.

(1) **29. C. Cabbarlının *"Ana"* şeirinin tədrisi zamanı müəllim hansı fikirdən istifadə edə bilməz?**

A) Bütün insanların ona düşmən olması lirik qəhrəmanı qorxutmur.

B) Övlad yolunda ömrünü şam kimi əridən fədakar ana obrazı yaradılmışdır.

C) Ananın beşik başında söylədiyi nəğmə övladı ən aciz varlığa çevirməyə qadirdir.

D) Qiyamət gününün dəhşətləri belə əyilməz olan lirik qəhrəmanı narahat etmir.

(1) **30. A. İldırımın *“Əsir Azərbaycanım”* şeirinin tədrisi zamanı şagird soruşdu:** *“Əsərin lirik qəhrəmanı hansı xüsusiyyətlərə malikdir?”*

Müəllim sualı hansı fikirlə cavablandıra bilməz?

A) Qəlbi vətən həsrəti ilə döyünən vətənpərvər bir insandır.

B) Vətənə qovuşmaq üçün təbiət qüvvələrindən kömək almaq arzusundadır.

C) Vətənini dünyada tayı-bərabəri olmayan bir ölkə hesab edir.

D) Müqəddəs dini yerlərdən öz dərdinə dərman diləyir.

# BƏDİİ MƏTNİN DƏRK EDLMƏSİ (15 BAL)

**Hüseyn İbrahimovun *"Əsrin onda biri"* romanından bir parçanı diqqətlə oxuyun:**

Eldəgizlər xanədanına tabe olan bütün şəhərlərdən ən çox Naxçıvan Cahan Pəhləvanın ruhuna doğma idi. Naxçıvana gəldiyinin səhəri günü hökmdar şəhəri dolaşmağa çıxdı. Hökmdarın məqsədi onun abadlaşdırılması yollarını saray adamları ilə götür-qoy etmək idi. Ətrafına böyük diqqətlə tamaşa edən hökmdar deyirdi:

– Biz sənətkarların qayğısını çəkməliyik. Naxçıvan sənətkarları həm bacarığına, həm də sayına görə Bağdadı da ötüb keçməlidir.

**1.** Saraya qayıdanda onun yolu gözəl tikintisi ilə, üzərinə vurulan naxışları ilə göz oxşayan bir darvazanın önündən düşdü.

– Bu kimin həyətidir? – Cahan Pəhləvan maraqlandı.

– Əbubəkrlərin. Dədə-babadan bənnadırlar.

– Mən bu həyətə də baxmaq istəyirəm.

Rəis təəccübünü gizlədə bilmədi:

– Siz... Hökmdar... Rəiyyətin həyatinə baxmaq istəyirsiniz?

– Bəli... Başa düşmürəm, buna niyə təəccüb edirsən? Yoxsa rəiyyətin həyətinə baxmağı qəbahət bilirsən, rəis?

Hökmdar darvazadan içəri girdi.

Əcəmi tut ağacının altındakı kötüyün üstündə oturub şəbəkə düzəldirdi. O gözləmədiyi bu qeyri-adi gəlişdən az qala özünü itirdi, cəld ayağa durdu:

– Gözlərimə inana bilmirəm, hökmdar! Bu, həqiqətən, sizsiniz?

– Bəli, mənəm, Əbubəkr oğlu. Bu səliqə-sahman, gözəl naxışlar məni yolumdan elədi. Atabəy-əzəm tez-tez deyərdi: "Hər bir hökmdarın əsas və ümdə borclarından biri elmi, mədəniyyəti himayə etməkdir, alimi-ədibi dəyərləndirməkdir".

Əcəmi sol əlini sinəsinə qoyub razılıq etdi:

▲ – Haqlısınız. Hökmdar ilk növbədə millətin təhsili və təlimini fikirləşməlidir. Tarixdə təkcə gücünə, qılıncına arxayın olanlar sonra peşmançılıq çəkiblər.

Rəis Əcəminin sözlərindəki eyhamı duyub onu dayandırmaq istədi. Cahan Pəhləvan əlinin kəskin hərəkəti ilə onu saxladı və dedi:

– Məsləhətləşmə məclisinə Əcəmini də dəvət elə. Sənəti ilə bizi ayağına gətirən sənətkarın sözləri də bizim üçün qiymətlidir.

Şənbə günü məclisdə sözə birinci Cahan Pəhləvan başladı:

**2.** – Mən Naxçıvanı daha abad, xalqımızı məsud görmək istəyirəm. Buranın inkişafı üçün gərəkli arzularınızı, istəklərinizi eşitmək niyyətindəyəm. Ancaq istəyirəm ki, yaxşı-yaxşı fikirləşsəniz, ağıllı, dərrakəli danışasınız.

Hökmdarın "ağıllı, dərrakəli danışasınız" sözləri məclisə bir süstlük gətirdi. Hamı bir-birinə baxdı. Kimsədən səs çıxmadı. Cahan Pəhləvan oturanları bir-bir nəzərdən keçirdi, gözləri heç kimin gözünə sataşmadı. Təkcə Əcəmi öz kağızlarından ayrılıb hökmdara baxırdı.

– Bəlkə, Əbubəkr oğlu Əcəmi fikir söyləmək niyyətindədir? – nəhayət, hökmdar dilləndi.

Əcəmi ayağa qalxdı.

– Hökmdar, heç bir millət, onun övladları, təhsilsiz, elmsiz uzağa gedə bilməz. Hər bir ölkə, böyük də olsa, kiçik də olsa, əvvəlcə alimləri, ədibləri ilə məşhurlaşar.

– Əvvələn hökmdarı ilə... – əyləşənlərdən kimsə söz atdı.

Əcəmi yan-yörəsinə baxsa da, söz deyənin kim olduğunu bilmədi. Çünki Cahan Pəhləvan əlinin kəskin hərəkəti ilə qulaq asmağı işarə etdi.

– Bura toplaşanlar agah olsunlar ki, alimi olmayan bir ölkənin padşahının da dili gödək olar qeyri millətlər yanında. Buna görə də biz hökmdarın təklif etdiyi Atabəylər meydanında ilk bina mədrəsəni nəzərdə tutmalıyıq. Elə bir mədrəsə ki, orada dünyəvi elmlər: hüquq, nücum, təbabət tədris olunsun.

Cahan Pəhləvan Əcəmini dinləyərkən atası Şəmsəddin Eldəgəzin Möminə xatun sərdabəsini Əbubəkr oğluna tikdirmək istəyini daha yaxşı anlayırdı.

... Məclis dağılanda Cahan Pəhləvan Əbubəkr oğluna qalmağı əmr etdi. Hökmdar öz qərarını bildirdi: Möminə xatun türbəsini Əcəmi inşa etməlidir.

Məhəmməd Cahan Pəhləvanın təklifindən sonra Əcəmi fikirli gəzib-dolaşırdı. Möminə xatunun şərəfinə türbə inşa etməklə bağlı qərarını verə bilmirdi. Hökmdarın yaxın adamlarından olan Dəbirlə dünənki söhbət də beynindən çıxmırdı. Dəbir demişdi:

– Hökmdar istəyir ki, Arrana heç bir əcnəbi usta dəvət olunmasın, tikintidə öz millətinin sənətkarları çalışsınlar. **3.** Naxçıvan sənətkarlarının yaratdığı abidələr Qoca Şərqdə tanınsın. Onları "Naxçıvani" deyə çağırsınlar.

Əcəmi də qərarsızlığının səbəbini onunla paylaşmışdı:

– Hökmdar arvadına, hökmdar anasına elə əzəmətli bir abidənin inşa olunması şəhər əhalisinin ürəyincə olmayacaq. Şəmsəddin Eldəgəzin məzarı üstündə tikilsə idi, düşünmək olardı ki, Azərbaycan Atabəylər dövlətinin hüdudlarını genişləndirdiyinə görə onun xatirəsini yaşatmaq üçün tikilir.

– Sən işə başla. Özün də fikirləşmə ki, hökmdarın anası üçün sərdabə tikirsən. Düşün ki, bir sənət əsəri yaradırsan. Qoy yaxşı bir yadigar qalsın səndən, – deyə Dəbir yenə də onu yola gətirməyə çalışmışdı.

İndi Şəhab meydanından qayıdan Əcəmi su içib sərinləmək üçün yolunu "Qızlar bulağı"ndan saldı. Yoxuşu aşağı enəndə bulaqdan su aparan bir dəstə qızla üz-üzə gəldi. Qızlardan biri onun qənşərində dayandı.

– Sabahın xeyir, usta. Bəlkə su içmək istəyirsən? – deyib əlindəki balaca bardağı ona uzatdı, – İzin versən, bir ricam var, onu deyərəm.

– Buyur, – deyə Əcəmi təəccüblə dilləndi.

– Möminə xatun ananın qəbrini yaxşı götür. O, yaxşı qadın idi. Camaata böyük yaxşılıqları keçmişdi.

Əcəmi fikrini toplayıb bir söz deyincə qızlar uzaqlaşıb getdilər. O, bazara doğru addımladı. Yolu kuzəçi dükanının qarşısından düşdü. Atasının köhnə dostu, doğma şəhərin mahir sənətkarlarından biri olan qoca kuzəçi soruşdu:

– Söhbət gəzir ki, bu gün-sabah başlayırsan mərhum Şəmsəddin Atabəyin övrətinə sərdabə tikməyə. Səhihdir bu xəbər?

– Hələ qəti qərara gəlməmişəm.

– Niyə ki?

– Cahan Pəhləvan elə bir sərdabə istəyir ki, onu tikməyə çətin ki, bir insan ömrü bəs edə, Dərgah kişi.

– Qardaşoğlu, sən bu xalqın kamil sənətkarısan, hökmdar da bunu bilir. **4.** O da, biz də əminik ki, sənin yaradacağın sərdabə zamanla yarışa girəcək. Sən bunu Şeyx Yusifin türbəsini tikəndə sübut etmisən. Əllərinə, gözlərinə güvən. Unutma ki, sən onu xeyirxah bir ananın məzarı üstündə ucaldırsan.

Əcəmi dükanların qabağından keçdikcə sənətkarlarla söhbətləşir, onların da fikirlərini öyrənməyə çalışırdı. O, bugünkü gəzintisindən çox razı qaldı. İnandı ki, onun işi ilə təkcə əyani-əşrəf yox, sadə xalq da maraqlanır.

Sübh tezdən ayaqları Əcəmini Möminə xatunun qəbrinin yanına apardı.

**5.** Məşriqdə günəş işartısı görünürdü. O, qəbrin baş tərəfində dayanıb pıçıldadı:

– Sənin də sabahın xeyir, Möminə xatun.

**Təlimat**

**Tapşırığı yerinə yetirmək üçün mətni diqqətlə oxuyun. Suallara mətnin məzmunu tamamilə aydın olduqdan sonra cavab verməyə başlayın.**

**Verilmiş cavablardan yalnız birini seçin və cavablar vərəqinin müvafiq xanasında – X işarəsi qeyd edin.**

(1) **31. Cahan Pəhləvan anasının xatirəsini əbədiləşdirmək üçün olan türbənin inşasını nə üçün Əcəmiyə tapşırır?**

1. Əcəminin sənətkar kimi qüdrətinə bələddir.
2. Atasının istəyi də bu olmuşdu.
3. Əcəmiyə etimad göstərərək xalqın gözündə ucalmaq istəyir.
4. Əcəminin çıxışları onun qərarına təsir edir.
5. Saray adamlarının tövsiyəsinə uyğun hərəkət edir.

A) 1, 2, 4.

B) 1, 2, 3.

C) 2, 4, 5.

D) 1, 3, 5.

(1) **32. Əsərdə hökmdarla sənətkarın ilk görüşü ilə əlaqəli olan aforizmi müəyyən edin.**

A) Hər bir sənət əsəri bütövlüyün və vahidin təcəssümüdür. İki əsər yanaşı olanda bir-birinə kölgə salır. *(Əbu Turxan)*

B) Həqiqi sənət əsəri qarşısında zaman acizdir. *(A. Serov)*

C) Sənət ehtiyacdan yaranır və var-dövlət içində boğulub ölür. *(Jorj Sand)*

D) Gözəl sənəti hər kəs görür, ancaq sənəti anlamaq onu həm görmək, həm də hiss etməkdir. *(Holley)*

(1) **33. Cahan Pəhləvanın xarakterinə aid olan cəhətlərdir:**

1. Anasının xatirəsini uca tutur.
2. Atasının tövsiyələrinə ehtiramla yanaşır.
3. Saray adamlarının rəyinə əhəmiyyət vermir.
4. Gözəl sənət əsərlərinin vurğunudur.
5. Rəiyyətə yuxarıdan aşağı baxır.

A) 1, 2, 4.

B) 1, 2, 3.

C) 2, 4, 5.

D) 1, 3, 5.

(1) **34. Əvvəlində ▲ işarə qoyulmuş abzas əsasında Əcəminin xarakterinə xas olan cəhətləri müəyyən edin.**

1. Cəsarətlidir.
2. Təvazökardır.
3. Təhsilin dəyərini anlayır.
4. Ehtiyatlıdır.

A) 2, 4.

B) 1, 3.

C) 1, 4.

D) 2, 3.

(1) **35. Əcəmi və Cahan Pəhləvanı düşündürən ortaq məsələdir:**

A) xalqın gələcəyi.

B) Naxçıvan sənətkarlarının şöhrəti.

C) camaatın rəyi.

D) saray adamlarının münasibəti.

(1) **36. Əcəmi nə üçün türbəni tikməyə tərəddüd edir?**

1. Xalqın rəyindən ehtiyat edir.
2. Hökmdarın xoşuna gəlməyəcəyini düşünür.
3. İşin məsuliyyətini dərk edir.
4. Şöhrətin xoşbəxtlik gətirmədiyindən əmindir.

A) 2, 4.

B) 1, 3.

C) 1, 4.

D) 2, 3.

(1) **37. Əsərin məzmunu ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Atabəy Məhəmmədin Əcəminin sənətinə inamı böyükdür.
2. Saray adamları qadının şərəfinə sərdabə tikilməsinin əleyhinədirlər.
3. Xalq  Əcəminin sənətinə maraq göstərir.
4. Möminə xatun türbəsi Əcəminin tikdiyi ilk abidədir.

A) 1, 2.

B) 1, 3.

C) 2, 4.

D) 3, 4.

(1) **38. Atabəylər hakimiyyəti dövründə ölkədəki ictimai-siyasi vəziyyətlə bağlı doğru fikirləri müəyyən edin.**

1. Ölkədə hakimiyyət atadan oğula keçmişdir.
2. Məşvərət məclisinin rəyi olmadan hökmdar qərar qəbul edə bilmir.
3. Təbəqələşmə mövcuddur.
4. Hökmdar sənəti himayə edir.
5. Qadınların hüquqları məhduddur.

A) 1, 2, 5.

B) 1, 2, 3.

C) 2, 4, 5.

D) 1, 3, 4.

(1) **39. Əsərdə ayrı-ayrı obrazların nitqi və düşüncələrinə əsasən Mömine xatun haqqında hansı fikirlər formalaşır?**

1. Xalq tərəfindən sevilir.
2. Sənətin inkişafı üçün çalışmışdır.
3. Qadınların hüquq əldə etməsində rolu olmuşdur.
4. Həyat yoldaşı ona dəyər vermişdir.
5. Xalqın xeyrinə işlər görmüşdür.

A) 1, 2, 5.

B) 2, 3, 5.

C) 1, 4, 5.

D) 1, 3, 4.

(1) **40. Mətndə qarşısında rəqəm yazılmış cümlələr əsasında uyğunluğu müəyyən edin.**

***I.*** *Epitet*

***II.*** *Metafor*

A) I – 2; II – 3, 5.

B) I – 3; II – 4.

C) I – 5; II – 1, 2.

D) I – 4; II – 1.

(5) **41. Əsərdə hökmdar və sənətkar obrazlarını yaratmaqda müəllifin əsas qayəsi nədir?**

*Nəzərə alın: 50 sözdən az olan cavab yoxlanılmayacaq!*